# Masallıda Aqrar Biznes Festivalı keçirilib

**Masallı rayonunda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondunun, İstehlak Mallarının Ekspertizası Mərkəzinin və Sahibkarlar Konfederasiyasının tərəfdaşlığı ilə Aqrar Biznes Festivalı keçirilib.**

Festivalda Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi və Elm və Təhsil Nazirliyinin tabeli qurumları, həmçinin bank və bank olmayan kredit təşkilatları iştirak ediblər. Masallı "ASAN xidmət" mərkəzində keçirilən festivalda fermerləri maraqlandıran müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və məhsullar nümayiş olunub, müxtəlif qurumların mütəxəssisləri dövlət və özəl sektorun əməkdaşlığı çərçivəsində fermer və sahibkarlara göstərilən dəstək barədə məlumat veriblər.

Sərgi bölməsində kənd təsərrüfatlı təyinatlı texnikalar, müasir suvarma texnologiyaları, bitki mühafizə vasitələri, müxtəlif bitki və tərəvəz toxumları nümayiş olunub.

Festival çərçivəsində keçirilən növbəti kredit yarmarkasında fermerlərə güzəştli kreditlərin verilməsi ilə bağlı məlumat verilib. Fermerlərin aqrar təyinatlı kreditlərin verilmə şərtləri, müxtəlif kredit məhsulları və digər məsələlərlə bağlı sualları cavablandırılıb.



Bundan başqa, festivalda kənd təsərrüfatı məhsullarının tədarükü və təchizatı ilə məşğul olan şirkətlər tərəfindən müxtəlif məhsullar satışa çıxarılıb, həmçinin Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və Azərbaycan Kənd Qadınları Assosiasiyasının qadın üzvləri öz məhsullarının nümayişini və satışını həyata keçiriblər.

Festival çərçivəsində Aqrar Xidmətlər Agentliyi yanında Aqrar Təlim Mərkəzi, Aqrar Sığorta Fondu və özəl şirkət tərəfindən sahənin prioritet istiqamətləri üzrə fermerlərə təlimlər keçirilib.

Azərbaycan.- 2024.- 16 mart, № 59.- S.11.